*Oqtay Rza,*
*Əməkdar müəllim,*
*Şair*



# MÜBARƏK!

**Dünya şöhrətli Xalq artistimizin yaşının üstünə bir yaş da gəldi. Ona möhkəm sağlamlıq, daimi nikbinlik və çoxsaylı uğurlar arzulayırıq!**

**Zeynəb - səhnəmizin gözəl Leylisi,**
**Qışda da oxuyan bülbülümüzdür;**
**”Şüştər”in, ”Segah”ın səsidir, səsi,**
**Odu atəşi-eşq, çələngi sözdür.**

**Ucalıq gətirir sənəti bizə,**
**Misilsiz sərvəti - ecazkar səda;**
**Bakıda doğulan müğənnimizə**
**Gül-çiçək verilib Amerikada!**

**Zeynəb - ulduzudur nəğməli bürcün,**
**Dost, qardaş ellərdə ötməyi tarix;**
**Əsgər oğullarla görüşmək üçün**
**Ön cəbhə xəttinə getməyi tarix.**

**Müşfiq dühasından ilham alaraq,**
**Yolu Sayarlara salmağı xoşdur;**
**Kasıbın evndə yandırıb çıraq,**
**Millət vəkili də olmağı xoşdur.**

**Onu dəfələrlə alqışlayıbdır**
**İstanbul, Buxarest, Tokio, London.**
**Ona xoş duyğular bağışlayıbdır**
**Şərqdə - Çin, Hindistan, Qərbdə Paris, Bonn...**

**Gəlir teleqramı, gəlir təbriki**
**Onu sevənlərin, tanıyanların;**
**Vətənlə bərabər cahan deyir ki,**
**Ad günü mübarək, Zeynəb Xanların!**

**26.12.2016**

ədalət.2016.28 dekabr.S.4.